# AZƏRBAYCAN RESPUBLİKASI

# ƏMƏK VƏ ƏHALİNİN SOSİAL MÜDAFİƏSİ NAZİRLİYİNİN KOLLEGİYASI

# QƏRAR

№ 12-2

Bakı şəhəri

"30" avqust 2017-ci il

**"Azərbaycan Respublikasının Dövlət Sosial Müdafiə Fondu tərəfindən göstərilən elektron xidmətlər üzrə inzibati reqlamentlərin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının Dövlət Sosial Müdafiəsi Fondunun Kollegiyasının 2013-cü il 03 aprel tarixli 6 nömrəli qərarında dəyişikliklər edilməsi barədə**

Azərbaycan Respublikası Prezidentinin "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 10 mart tarixli 543-VQD nömrəli Qanununun tətbiqi və "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 6 mart tarixli 377 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında" 2017-ci il 1 may tarixli 1352 nömrəli Fərmanının 1.4-cü bəndinin, "Sosial sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 13 iyun tarixli 720-VQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-cı il 13 iyul tarixli 3089 nömrəli Sərəncamının 1.3-cü bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 16 fevral tarixli 386 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi haqqında Əsasnamə"nin 5.10-cu bəndini rəhbər tutaraq Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Kollegiyası

**qərara alır:**

1. "Azərbaycan Respublikasının Dövlət Sosial Müdafiə Fondu tərəfindən göstərilən elektron xidmətlər üzrə inzibati reqlamentlərin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Dövlət Sosial Müdafiəsi Fondunun Kollegiyasının 2013-cü il 03 aprel tarixli 6 nömrəli qərarında dəyişikliklər təsdiq edilsin (əlavə olunur).
2. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Aparatının Hüquq şöbəsinə (G.İsgəndərova) tapşırılsın ki, bu Qərarın qəbul edildiyi gündən 3 gün müddətində Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim olunmasını təmin etsin.

3. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Aparatının Ümumi şöbəsinə (L.Abdullayeva) tapşırılsın ki, bu Qərarın surətinin çoxaldılaraq Nazirliyin aidiyyəti struktur bölmələrinə çatdırılmasını təmin etsin.

4. Qərarın icrasına nəzarət Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin 2014-cü il 28 fevral tarixli 11/7-32 nömrəli əmri ilə müəyyən edilmiş kurasiya bölgüsünə əsasən həyata keçirilsin.

**Kollegiyanın sədri** **Səlim Müslümov**

ƏSLİ İLƏ DÜZDÜR

AZƏRBAYCAN RESPUBLİKASININ ƏMƏK VƏ ƏHALİNİN SOSİAL MÜDAFİƏSİ NAZİRLİYİ
Ümumi şöbə

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Kollegiyasının "30" avqust 2017-ci il tarixli 12-2 nömrəli qərarı ilə təsdiq edilmişdir.

**"Azərbaycan Respublikasının Dövlət Sosial Müdafiə Fondu tərəfindən göstərilən elektron xidmətlər üzrə inzibati reqlamentlərin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Dövlət Sosial Müdafiə Fondunun Kollegiyasının 2013-cü il 3 aprel tarixli 6 nömrəli qərarında edilmiş dəyişikliklər**

1. Həmin Qərarla təsdiq edilmiş "Pensiya təyinatının və pensiya növünün dəyişdirilməsi üçün müraciətin və sənədlərin qəbulu inzibati reqlament"in 2.6-cı bəndinin birinci hissəsinin beşinci, ikinci hissəsinin yeddinci, üçüncü hissəsinin onuncu abzaslarında "baza" sözü "sığorta" sözü ilə əvəz edilsin.

2. Həmin Qərarla təsdiq edilmiş "Sığortaedənin (hüquqi şəxs) onlayn uçota alınması" üzrə inzibati reqlamentə 3 nömrəli əlavə - "Sığortaedənin məcburi dövlət sosial sığortası üzrə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında DSMF-nin orqanında uçota alınması barədə bildiriş"in altıncı abzasında "nağd və ya" sözləri "yalnız" sözü ilə əvəz edilsin.

3. Həmin Qərarla təsdiq edilmiş "Sığortaedənin (fiziki şəxs) onlayn uçota alınması" üzrə inzibati reqlamentə 3 nömrəli əlavə - Sığortaedənin məcburi dövlət sosial sığortası üzrə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında DSMF-nin orqanında uçota alınması barədə bildiriş"in altıncı abzasında "nağd və ya" sözləri "yalnız" sözü ilə əvəz edilsin.

4. Həmin Qərarla təsdiq edilmiş "Ailə kəndli təsərrüfatının onlayn uçota alınması" üzrə inzibati reqlamentə 3 nömrəli əlavə - Sığortaedənin məcburi dövlət sosial sığortası üzrə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında DSMF-nin orqanında uçota alınması barədə bildiriş"in altıncı abzasında "nağd və ya" sözləri "yalnız" sözü ilə əvəz edilsin.

5. Həmin Qərarla təsdiq edilmiş "Kənd təsərrüfatına yararlı torpaq sahəsi olan şəxsin onlayn uçota alınması" üzrə inzibati reqlamentə 3 nömrəli əlavə - Sığortaedənin məcburi dövlət sosial sığortası üzrə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında DSMF-nin orqanında uçota alınması barədə bildiriş"in altıncı abzasında "nağd və ya" sözləri "yalnız" sözü ilə əvəz edilsin.